Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

# XOCAVƏND

№ 03 (91) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti 1-15 İyun 2020-ci il

## Ölkəmizə qarşı tətbiq olunan ikili beynəlxalq standartlar bizi ali məqsədlərimizdən döndərə bilməz!



Prezident İlham Əliyev 2020-ci il iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışı zamanı rayonun bir qrup idmançısı qarşısında çıxışı zamanı Qondarma Dağlıq Qarabağda xunta rejimində 31 martda keçirilən prezident və parlament, 14 apreldə keçirilən prezident (2-ci tur) seçkiləri ilə bağlı proqram xarakterli olduqca vacib məqamlara toxunmuşdur:

• Qondarma Dağlıq Qarabağda xunta rejiminin keçirdiyi saxta prezident və parlament seçkiləri bir şou və təlxəklər tamaşasıdır. Dünyanın heç bir dövləti illərdir keçirilən "məzhəkə oyununun" nəticələrini tanımayıb. Hətta Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçilik missiyası ilə çıxış edən ATƏT-in Minsk qrupu həmsədrləri – Amerika, Fransa, Rusiya qondarma xunta rejimində keçirilən seçkiləri və nəticələrini tanımadıqlarını bildiriblər. Avropa İttifaqı da eynilə seçkiləri tanımadığını bəyan edib. Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı. Məsələyə təkcə Avropa Şurası münasibət bildirmədi və yuxarıda adları keçən dövlətlərin və beynəlxalq təşkilatların sırasına qoşulmadı. Avropa Şurasının susmağının səbəbi bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən, demokratiyadan və beynəlxalq hüquqdan söhbət gedə bilər! Avropa Şurası qitədə yüz illərdir formalaşan bəşəri və insani dəyərləri diqqətə almadan xunta rejiminin, işğalçının, Xocalıda soyqırım edən, narkotik və silah qaçaqmalçılığı mərkəzi olan qondarma qurumun demokratik dəyərləri kobud şəkildə pozmasına səssiz qaldı.

Prezident İlham Əliyev daha sonra çıxışına belə davam edib:

• "Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır". Prezident İlham Əliyev Avropa Şurası ilə münasibətləri xarakterizə edərək, bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytardıqlarını, indi bu dünyada bəzi ölkələrdə nələr baş verməsi ilə bağlı Avropa Şurasından bəyanat vermələrini gözlədiklərini qeyd etdi.

• Prezident İlham Əliyev elə Avropa dövlətlərinin özlərində polis zorakılığının, nümayişçilərə qarşı tətbiq edilən gücün, nümayişçilərin öldürülməsinin, onların gözlərinin çıxarılmasının, kütləvi surətdə həbslərin, jurnalistlərin döyülməsinin, həbs edilməsinin müşahidə edildiyini ifadə edib. Açısınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu, məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıblar.

Prezident İlham Əliyev nitqinə davam edərək belə deyib:

• Mart ayında şouların təşkili üzrə peşəkar olan (şoumen) Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "prezident və parlament seçkiləri" keçirildi. Həmin "seçkilər" beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edildi. Dünyanın aparıcı və mötəbər təşkilatları və bir sıra ölkələr Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə etməklə yanaşı, qondarma "seçkiləri" tanımadıqlarını bildirdilər. Lakin Azərbaycanı tənqid eləmək üçün ən kiçik fürsətdən belə yararlanmağa çalışan AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Roger Qey bu məsələdə indiyədək qəribə səssizlik nümayiş etdirdilər. Göründüyü kimi, qərəz və kin yuvası olan AŞPA bir daha mötəbər olmağı bacarmadı.

Qeyd edək ki, qondarma Dağlıq Qarabağ xunta rejimində prezident və parlament seçkilərinin COVID-19 koronavirus pandemiyasının geniş yayıldığı bir zamanda keçirilməsi məsələsi də geniş izah olunmalıdır. Pandemiya dövründə keçirilən seçkilərdə belə Qərb dövlətləri və AŞPA səslərini çıxarmadı. Hətta BBC seçkilərlə bağlı xəbərləri "Koronavirusun ortasında seçkilər" kimi manşetə çıxardaraq bunun bir "cəsarət nümunəsi" kimi təqdim etməyə çalışdı. Qondarma Dağlıq Qarabağ xunta rejimində prezident və parlament seçkiləri zamanı insan həyatına bu qədər ucuz dəyər verilməsi, bütün dünya koronavirus pandemiyasına qarşı ümumi mübarizə edərkən xunta rejiminin pandemiyaya qarşı gərəkli önləyici tədbirlərin almaması da diqqətdən kənarda qalmamalı və gündəmə gətirilməlidir.

(Davamı səh. 4-də)

## Azərbaycanın əldə etdiyi bütün uğurlara görə hər birimiz Ümummilli Liderə borcluyuq



Azərbaycanın əldə etdiyi bütün uğurlara görə hər birimiz Ümummilli Liderə borcluyuq. Heydər Əliyev hər zaman qəlbimizdədir və Azərbaycan yaşadıqca, o da yaşayacaq.

***İMZA***
***Ilham Aliyev***

## Azərbaycan Prezidenti əhalini maskadan istifadə etməyə çağırdı

### *"Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur"*



Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da üç modul tipli xəstəxananın açılışı zamanı deyib.

"Biz eyni zamanda sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb", - dövlət başçısı bildirib.

# Vətəndaşların və beynəlxalq təşkilatların təqdir etdiyi fəaliyyət




## İLHAM ƏLİYEV: *Azərbaycan koronavirus pandemiyasına qarşı sadəcə regionda öndə gələn dövlət deyil, eyni zamanda inkişaf etmiş bir sıra dövlətlərdən daha hazırlıqlıdır*

Ümumiyyətlə, Prezident İlham Əliyevin koronavirusla mübarizə təşəbbüsləri çoxşaxəlidir. Bu zaman vətəndaşların müasir və "Yeni klinika" adlanan xəstəxanasının açılışından sonra virusa yoluxan xəstələrin müalicəsi üçün onların ixtiyarına verilməsi, yeni laboratoriyaların alınması, Sumqayıtda qoruyucu tibbi maska istehsalı müəssisələrinin fəaliyyətə başlaması vətəndaşların sağlamlığı naminə həyata keçirilən dövlət siyasətinin uğurlu nümunələri oldu. larımız üçün xüsusi portal yaradılıb. Vətəndaşlar o portalda qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər.




mız və beynəlxalq təşkilatlar tərəfindən təqdir olunan əsas məsələ Prezident İlham Əliyevin problemin həllində nümayiş etdirdiyi nümunəvi mövqeyidir. İlham Əliyevin fərman və sərəncamları ilə məqsədi koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarət olan Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılması və buraya Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manatın ayrılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının artırılması, koronavirusla əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi virusla mübarizənin ilkin mərhələsində atılan mühüm addımlar oldu.

Eyni zamanda 575 çarpayıdan ibarət olan, ölkəmizin ən

Minlərlə Azərbaycan vətəndaşının müxtəlif ölkələrdən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə ölkəmizə təxliyə edilməsi isə İlham Əliyevin hər bir məsələdə öz xalqının yanında olduğunu, vətəndaşının taleyinə son dərəcə diqqətlə yanaşdığını növbəti dəfə təsdiq etdi. Cənab prezident İlham Əliyev iyunun 9-da modul tipli xəstəxananın açılışında bir daha bildirdi ki, xaricdə qalan vətəndaşlarımız da hər zaman diqqət mərkəzindədir və onların ölkəyə gəlməsi üçün bütün mümkün vasitələrdən istifadə edilir.

"Xaricdə qalan və Azərbaycana gəlmək istəyən vətəndaş- ... Yəni, bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsun. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir."

Atılan addımlar, verilən qərarlar həm də iqtisadi dayanıqlığın qorunması və vətəndaşların sosial rifahı kimi məsələləri əhatə etdi. Yüz minlərlə vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənildi. Aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə ödənişli ictimai iş yerlərinin sayı 2 dəfə artırılaraq 90 minə çatdırılıb. Aprelin 1-dən həm də ünvanlı sosial yardımı alan ailələrin sayı 12 min artırılıb.

# 15 İyun – Milli Qurtuluş Günü




1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərtidisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

# Heydər Əliyevin sayəsində üç Azərbaycan övladının nahaqdan tökülən qanı yerdə qalmadı




Bu, olduqca vacib və eyni zamanda, təhlükəli olan iş o vaxt cəmi bir ay əvvəl dövlət təhlükəsizlik komitəsinə sədr təyin edilmiş Heydər Əliyevə tapşırıldı. O, bir sıra təhlükəsizlik tədbirləri gördü. Ölənlərin cəsədləri sakit bir şəraitdə öz kəndlərinə aparıldı. Heydər Əliyev əvvəlcə Qaradağlıda yerli əhali ilə görüşüb söhbət apardı, onlara təsəlli verib sakitləşdirdi. Sonra camaatla birlikdə qəbiristanlığa gedərək dəfn mərasimində çıxış elədi, cinayətkarların sərt və amansız şəkildə cəzalandırılacaqlarına söz verdi...

Bu işin təşkilatçıları və əsas iştirakçıları məhşər ayağına çəkildilər. Yetmiş üç nəfər cani tutuldu. Bu qanlı aksiyanın başçılarından olan Arkadi Manuçarov, Baqrat Ulubabyan və başqaları "asta qaçan namərddir" - deyib aradan çıxdılar, özlərinə İrəvanda sığınacaq tapdılar.

İstintaqın gedişində həbs edilmiş yetmiş üç nəfərdən əlli üçü müəyyən müddətdən sonra buraxıldı, iyirmi nəfər isə cinayət məsuliyyətinə cəlb olundu. Səkkiz aya qədər davam edən istintaq işi, nəhayət, sona çatdı və 1968-ci il mayın 21-dən iyulun 23-nə qədər məhkəmə iclasları keçirildi. İşi Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası aparırdı. Üç azərbaycanlı gəncin vəhşicəsinə öldürülməsinin əsas baisi Benik Movsesyan törətdiyi cinayətləri boynuna almaq istəməsə də, Nikolay Sərkisyan, Ağasi Qriqoryan, Avetis Sərkisyan, Qriqori Akopyan, Pavel Qasparyan, Robert Beqlyaryan, Eduard Voskanyan, Karlos Ağacanyan və başqa din qardaşları onun üzünə durub, bütün cinayətlərini məhkəmə qarşısında açıb danışdılar. İstintaqın gedişində həm də aşkar olundu ki, hadisə zamanı hərbi hissəyə məxsus bir maşın yandırılmış, kinoteatra və parka 1464 manat 20 qəpik maddi ziyan dəymiş, on üç nəfər milis işçisi və Sovet Ordusunun iki əsgəri yüngül yaralanmışdır. Dövlətə dəyən maddi ziyan həbs olunan ermənilər tərəfindən ödənildi. Məhkəmə kollegiyasının son qərarı isə belə oldu: Benik Nersesoviç Movsesyana, Artyuşa Xaçaturoviç Əsribabyana, Conrik Andreyeviç Ohanova, Yermak Nikolayeviç Arakelyana və Albert Armenakoviç Danielyana güllələnmə verildi, Ambarsum Qriqoryeviç Arustamyana 15 il (ciddi rejimlə), Sergey Nersesoviç Ohanyana 12 il, Ernest Ambarsumoviç Arustamyana 8 il, Mamvel Vaqarşakoviç Babayana 6 il, Nikolay Poqosoviç Cavadyana 5 il, Georgi İvanoviç Oqanesyana 5 il, Aleksandr Soqomonoviç Çalyana 4 il, Suren Osipoviç Sərkisyana 4 il, Jora Rubenoviç Şahnazaryana 4 il, Ağasi Nikolayeviç Qriqoryana 3 il, Qrant Samsonoviç Sərkisyana 3 il, Valeri Barxudaroviç Arutyunyana 3 il, Setrak Avanesoviç Sərkisyana 2 il, Armen Armaisoviç Djanqiryana 2 il və Yuri Semyonoviç Avanesyana 2 il iş kəsildi.

Və beləliklə də, üç Azərbaycan övladının nahaqdan tökülən qanı yerdə qalmadı. Xalqın milli qeyrətli oğullarının təəssübkeşliyi sayəsində əfi ilanın başı elə yerindəcə əzildi, erməni daşnakları iyirmi ilə yaxın öz əzilmiş başlarını bir daha qaldıra bilmədilər.




# Nəyə görə 1993-cü il iyunun 15-ni Qurtuluş Günü adlandırırıq?

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdir. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdür. Qiyamçı hərbi hissənin rəhbərliyi Baş nazir və Milli Məclis Sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdir. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdır. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdir. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil edilmişdir.

Ulu öndərin Ali Sovetin Sədri seçilməsi Azərbaycanda eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etmişdir. Heydər Əliyev parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdır. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdir. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdir.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdir. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir.

*İlham ƏLİYEV:*

# Mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub




Bir neçə aydır bütün ölkələrdə ciddi təhdid mənbəyinə çevrilən koronavirus pandemiyası hər gün on minlərlə insanın həyatını təhlükə altına atır. Təsadüfi deyil ki, son statistikaya görə, dünyada bu virusa yoluxanların sayı 7,3 milyon, ölənlərin sayı isə 413 min nəfəri ötüb. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıb.

Bu müddətdə xəstəliklə mübarizə tədbirləri təsdiq etdi ki, yoluxuculuq forması yüksək olan virusdan qorunmağın ən yaxşı yollarından biri sosial izolyasiya, insanlar arasında ünsiyyətin məhdudlaşdırılması, karantin rejiminin tətbiqidir. Bu xüsusda müvafiq addımlar atan, qabaqlayıcı tədbirlər görən ölkələrdə virusun tüğyan etməsinin qarşısı alınıb və itkilər digər dövlətlərlə müqayisədə xeyli az olub.

Bunun ən real nümunəsi qismində çıxış edən ölkələrdən biri də Azərbaycandır. Təsadüfi deyil ki, bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Bu da təsadüfi deyil. Çünki fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan sonra dərhal, operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Virusun qonşu ölkələrdən gəlməsi nəzərə alınaraq yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı və yalnız Azərbaycan vətəndaşlarının vətənə qayıtmalarına imkan yaradıldı. O cümlədən bütün istiqamətlərə təyyarə uçuşları dayandırıldı.

Qlobal pandemiya ilə mübarizə məsələsi ilk gündən Prezident İlham Əliyevin diqqət mərkəzində oldu. Mart, aprel, may və iyun aylarında dövlət başçısının fəaliyyəti, keçirdiyi görüşlər, verdiyi qərarlar bunu təsdiq edir. Koronavirusla mübarizə bu gün dövlət siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə ən vacib məsələ isə ilk növbədə vətəndaşların sağlamlığıdır. İyunun 9-da modul tipli xəstəxanaların açılışı zamanı Prezident İlham Əliyev bir daha bildirdi ki, görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır.

"Mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub" - deyən cənab Prezident əsas vəzifəmizin insanları bu xəstəlikdən qorumaq, onların həyatını xilas etmək olduğunu vurğulayıb.

"Koronavirus pandemiyası başlayandan bu günə qədər Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik."

Məhz həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində Azərbaycanda koronavirus pandemiyasının ağır fəsadları, Avropa ölkələrində olduğu kimi, çoxlu sayda insan itkisi baş vermədi. Bu həm də onu göstərir ki, Azərbaycanda vəziyyət nəzarət altındadır. Qeyd edək ki, Azərbaycanda virusa yoluxanların sayı 8 minə qədər olduğu halda, əhalisi bizdən beş dəfə az olan Ermənistandan yoluxma sayı 13 mini ötüb. Prezident İlham Əliyev bildirib ki, xalqla iqtidar arasında birlik olan yerdə nəticə də yaxşı olur: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".

# Modul xəstəxanalardan dördü hazırdır

**İlham Əliyev: *"Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir"***



Virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər görüldü. Bu istiqamətdə görülən kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli xəstəxanaların tikintisinin xüsusi əhəmiyyəti var. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır. Belə ki, modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyat yeri yaranır. Eyni zamanda bu xəstəxanaların yaradılmasında əsas məqsədlərdən biri də koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.

Modul tipli xəstəxanaların yaradılması Prezident İlham Əliyevin "Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2020-ci il tarixli sərəncamı ilə həyata keçirilir.

Bunun üçün dövlət büdcəsindən 14,8 milyon manat ayrılıb. İlk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Növbəti 3 xəstəxana isə paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılıb. Mühüm məsələlərdən biri də odur ki, 10 modul xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Bununla da dövlətin üzərinə düşən yük bir qədər azalır. Bu barədə danışan Prezident İlham Əliyev özəl sektora və vətəndaşlara təşəkkür edərək deyib: "Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm".

# Ölkəmizə qarşı tətbiq olunan ikili beynəlxalq standartlar bizi ali məqsədlərimizdən döndərə bilməz!

(Əvvəli səh. 1-də)

Azərbaycan və Ermənistanın eyni tarixlərdə Avropa Şurasına üzv olduqlarını və bərabər bir sıra öhdəliklər götürdüklərini vurğulayan Prezident İlham Əliyev, Ermənistandan fərqli olaraq Azərbaycanın götürdüyü öhdəliklər sadiq qalmasına baxmayaraq, bu iki ölkəyə münasibətdə AŞ-nın ikili standartlarda siyasət həyata keçirdiyini xatırladıb:

• Azərbaycan 2001-ci il yanvarın 17-də Avropa Şurasına eyni gündə üzvlüyə qəbul olunan zaman Azərbaycan və Ermənistan Avropa Şurası qarşısında bir sıra öhdəliklər götürmüşlər. Həmin öhdəliklərin biri də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələdir. Xüsusilə vurğulanmalıdır ki, həmin öhdəliklərin monitorinqini Avropa Şurası həyata keçirir. Deməli, münaqişə məsələsinə dair fikir bildirmək elə həmməruzəçilərin birbaşa mandatına daxildir. AŞ-dan fərqli olaraq, Azərbaycan hər zaman Avropa Şurası qarşısında öhdəliklərinə sadiq almışdır.

AŞPA-Azərbaycan münasibətlərinə toxunan Prezident İlham Əliyev son vaxtlar Avropa Şurasının Parlament Assambleyasının Azərbaycana qarşı nifrət aşıladığını deyib və təbii ki, mahiyyət etibarilə azərbaycanafobiyanı özündə ehtiva edən mövqeyi diqqətindən yayınmayıb:

• Prezident İlham Əliyev qeyd edib ki, heç kəsə sirr deyildir ki, son vaxtlar Avropa Şurası Parlament Assambleyası tamamilə nüfuzdan düşən bir quruma çevrilib, AŞPA məhz Azərbaycanın hesabına özünə reytinq yığmağa çalışır və heç kəsə sirr deyil ki, AŞPA-da son illər aparılan müzakirələr ədalətli deyil, demokratik dəyərlər və insan haqları kobud şəkildə pozulur, sönük keçir. AŞPA-nın 324 əsas üzvü olsa da, müzakirələr zamanı əksər hallarda ümumi sayın 1/3 və ya daha aşağı hissəsi plenar iclaslarda iştirak edir. Məsələn, AŞPA-nın bu ilin yanvarın sonlarında keçirilən qış sessiyasında Assambleyanın monitorinq proseduru ilə bağlı tərəqqi hesabatının səsvermesində 69 deputat, son vaxtlar AŞPA-nın əsas müzakirə mövzularından biri olan yeni komplementar prosedurla bağlı qətnamənin səsverməsində isə 163 deputat iştirak edib.

AŞPA-nın fəaliyyətinin bəşəri dəyərlərlə və beynəlxalq hüququn prinsipləri ilə üst-üstə düşmədiyini, ikili standartlar nümunəsinə rast gəldiyini qeyd edən Prezident İlham Əliyev belə davam edib:

• AŞPA ikili standartların ən geniş vüsət aldığı regional platformadır və təəssüf ki, Azərbaycan bu yanaşmanın əsas hədəflərindən biri olmaqda hələ də davam edir. Təxminən 20 ildir ki, siyasi sifariş icra edən bir sıra şəxslər AŞPA tribunasından ölkəmizə qarşı əsassız tənqidlər və böhtan səsləndirmək üçün istifadə etməyə cəhd edirlər.

• Bu gün biz dünyanın demokratiyanın beşiyi sayılan ölkələrində Hollivud filmlərini xatırladan polis qəddarlığının, zorakılığının, insanların polis tərəfindən döyülməsinin, təhqir edilməsinin, insanların üstünə itlər göndərilməsinin, atlarla əzilməsinin şahidi oluruq. Lakin Azərbaycanda kiçik bir çırtmaya dərhal reaksiya verən AŞ və Qərbin bəzi dairələri bu kimi hallara göz yumur və səsini belə çıxarmağa cürət/cəsarət etmir.

Son zamanlarda ABŞ-da kütləvi etirazların yaşanması probleminə də toxunan Prezident İlham Əliyev problemə münasibətini belə şərh edib:

• ABŞ-ın Minneapolis şəhərində "Nəfəs ala bilmirəm" deyə inildəyən silahsız qaradərili Corc Floydun ölümü ilə əlaqədar kütləvi iğtişaşlar səngimək bilmir. Həmin səhnələrə baxdıqda məşhur Hollivud filmləri olan "Qara cəngavərin yüksəlişi" və "Coker" filmləri insanın gözü qarşısında keçir. Heç kimə sirr deyildir ki, ABŞ-da qaradərililərə qarşı sistematik hal almış ayrı-seçkilik mövcuddur. Mayın 26-dan başlamış iğtişaşlar zamanı 11 mindən çox insan həbs olunmuş, 16-dan çox insan həyatını itirmişdir. Hadisələr zamanı internetdə jurnalistlərin xəsarət alması ilə bağlı da kifayət qədər materiallar mövcuddur. Aksiyalar zamanı biz həbelə lüzumsuz yerə hədsiz dərəcədə güc tətbiqinin də şahidi olduq. Lakin ölkəmizi tənqid etməyə vərdiş eləmiş qüvvələr nədənsə həmin hadisələri görməzdən gəlirlər.

AŞPA və ATƏT-in Azərbaycana yönəlik haqsız siyasətini qiymətləndirən Prezident İlham Əliyev belə deyib:

• AŞPA və ATƏT-in müvafiq strukturları heç cür azərbaycanafobiya halını almış Azərbaycana qarşı antipatiyasını gizlədə bilmir. Bunun əsas səbəblərindən biri yəqin ki hazırda Qərbdə sürətlə vüsət alan islamofobiyadır. Görünür AŞPA-da bəziləri bu qurumu sırf "xristian klubu" kimi görmək istəyindədirlər. "Beyin ifliCi" keçirən Qərbin özünün məhsulu olan Suriya və Liviyadakı vəziyyətdən sonra yaranmış miqrasiya problemi zamanı islamofobiyanı aydın şəkildə sezmək mümkündür.

Prezident İlham Əliyev AŞPA-nın Azərbaycana yönəlik siyasətində siyasi məhbuslar məsələsinin haqsız və əsassız olaraq hər zaman gündəliyə gətirməsi məsələsinə də münasibət bildirib:

• Azərbaycana qarşı AŞPA-da antipatiyanın daha da güclənməsinin səbəblərindən biri şübhəsiz ki 2013-cü ildə Kristof Ştrasserin Azərbaycanda siyasi məhbuslarla bağlı qondarma hesabatının səsverme ilə rədd edilməsi dayanır. Bu məğlubiyyətdən sonra anti-Azərbaycan qüvvələri daha da quduzlaşdılar. Revanş hissi ilə yaşayan həmin qüvvələr ilk növbədə ölkəmizdə keçirilən mühüm tədbirlər ərəfəsində və zamanı Azərbaycanı qaralamağa başladılar. Bunun kampaniya olduğu və kimlərsə tərəfindən idarə edildiyi aydın şəkildə dərhal sezilirdi.

• Ölkəmizə qarşı ciddi nəsə edə bilməyən qüvvələr mifik "Azərbaycan landromatı" söhbətini ortaya atdılar. Bir anlıq təsəvvür edək ki, guya bu iddialar doğrudur. Onda belə çıxır ki, AŞPA-da olan deputatlar, siyasətçilər pula satılmış prinsipsiz və əqidəsiz tülüngülərdir. Bəs onda bu satılmış siyasətçi və deputatlar hansı əsasla insan hüquqları və dəyərlərdən danışırlar?!

AŞPA-nın cari ilin 9 fevral tarixində keçirilən parlament seçkiləri ilə bağlı qərəzli və ədalətsiz münasibəti də Prezident İlham Əliyevin nitqində yer alıb:

• AŞPA-nın Azərbaycanda keçirilmiş parlament seçkilərinə münasibəti qəbuledilməz idi. Bütün seçki prosesini, atılan addımları, tərəqqini kənara qoyaraq diqqəti bir neçə nəfərin üzərinə cəmləmək və Azərbaycana qarşı iftiralar atmaq sırf qərəzdən xəbər verir. Bu mənada, 2020-ci il yanvarın 30-da AŞPA-da Azərbaycanla bağlı qəbul edilmiş qətnamənin məzmunu bir yana, vaxtı da suallar doğurdu. AŞPA-nın seçkiyə az qalmış belə bir destruktiv addım atması onun sadəcə siyasi cəhətdən yetişməməsinin bariz nümunəsidir. Sual olunur. AŞPA Azərbaycanı məgər bu qədər çox sevir? AŞPA-nın bu qədər Azərbaycanı canı yanır?

AŞPA-Azərbaycan münasibətlərini təhlil edən Prezident İlham Əliyev qurumun təməlini təşkil edən bəşəri demokratik dəyərlərin qurumun özü tərəfindən heç də bəşəri qəbul edilmədiyini göstərməsi baxımından maraqlı müqayisə aparıb:

• Əgər belədirsə, AŞPA nə üçün Azərbaycan ərazilərinin işğal olunması nəticəsində məcburi köçkünə çevrilmiş yüzminlərlə azərbaycanlının taleyinə biganə qalır. AŞPA-da 2005-ci ildə qəbul edilmiş "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416 (2005) saylı qətnamə çox yüksək əhəmiyyətə malik sənəddir. Bu sənəddən irəli gələrək, yaradılmış Dağlıq Qarabağ münaqişəsi üzrə alt-komitə Ermənistan nümayəndə heyətinin qeyri-konstruktiv yanaşması ilə fəaliyyətini dayandırmışdır. Bu xüsusda, AŞPA tərəfindən qeyd edilən qətnamənin icrası istiqamətində qətiyyətin və Ermənistanın sərgilədiyi bu mövqeyə görə sərt qınanmasının şahidi olmamışıq. Azərbaycanda məişət zəminində baş vermiş ürək getməsinə belə reaksiya verən AŞPA nəyə görə öz qərarına Ermənistan tərəfindən məhəl qoyulmamasına reaksiya vermir.

Prezident İlham Əliyev qondarma Dağlıq Qarabağ xunta rejimində əsirlikdə olan iki mülki Azərbaycan vətəndaşının - Dilqəm Əsgərov və Şahbaz Quliyevin hələ də qanunsuz olaraq xunta rejimində həbsdə saxlanılmasına aidiyyəti qurumların səssiz qalmasına münasibət bildirib:

• AŞPA azərbaycanlıları sevirsə, niyə indiyədək hazırda Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin pozulmuş hüquqlarının bərpası ilə bağlı kiçik də olsa bir fikir səsləndirmirlər. Axı onlar da insandırlar və onların işgəncə altında da saxlanıldığı heç kimi sirr deyil.

AŞPA-da Ermənistan nümayəndə heyətinin üzvlərinin Azərbaycana qarşı qərəzli mövqeyinə, faşistlərlə əməkdaşlıq etmiş Qareqin Njdenin İrəvanda heykəlinin qoyulmasına bu qurumun münasibət bildirilməməsi məsələsinə toxunan Prezident İlham Əliyev çıxışına belə davam edib:

• AŞPA-dakı Ermənistan nümayəndə heyətinin üzvləri zaman-zaman Azərbaycana qarşı nifrət dolu çıxışlar edir, ölkəmizi tamamilə qəbulolunmaz formada ittiham edirlər. Məsələn, AŞPA-nın 2020-ci ilin yanvarında keçirilmiş qış sessiyasında Qaregin Njdeyə kimi əli günahsız insanların qanına batmış və faşistlərlə əməkdaşlıq etmiş Ermənistanın bir deputatı Azərbaycanı faşizm ilə əlaqələndirmişdir. Təəssüf ki, bu kimi hallarda AŞPA rəhbərliyi tərəfindən məsələyə adekvat reaksiya verilmir. AŞPA kimin tərəfindədir? Faşistlərlə əməkdaşlıq etmiş Qaregin Njdeni dövlət səviyyəsində qəhrəmanlaşdıran Ermənistanın, yoxsa mədəniyyətlərarası və dinlərarası dialoqu özünün xarici siyasətinin əsas prioritetlərindən birinə çevirmiş Azərbaycanın?! Utanmasan, oynamağa nə var ki? Gör kim kimə faşist deyir? Sanki qədim Azərbaycan şəhərini həyasızcasına özününküləşdirmiş İrəvan şəhərində faşistə abidəni də Azərbaycan qoyub.

AŞPA-nın qərəzli, ədalətsiz və beynəlxalq hüququ nəzərə almadan qarayaxma kampaniyasının Azərbaycanın siyasi iradəsindən döndərə bilməyəcəyini, doğru və qanuni bildiyi yoldan uzaqlaşdırmayacağını qeyd edən Prezident İlham Əliyev deyib:

• AŞPA-da bəziləri Ermənistan, erməni lobbisi və islamofobların apardıqları qatı anti-Azərbaycan kampaniyası ilə ölkəmizi öz yolundan döndərmək mümkünsüzdür. Azərbaycanda siyasi məhbuslarla bağlı qəbul edilmiş son qətnamə heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin Azərbaycan üçün dəyəri bir kağız parçasından artıq deyil. Azərbaycan orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmir. Azərbaycanla hədə, şantaj dilində danışmaq olmaz. Azərbaycan AŞPA-nın qərəzli qətnamələrinin heç birini icra etməyəcəkdir. AŞPA isə bundan sonra da Azərbaycanla bütün körpüləri yandırmaq siyasətini davam etdirmək istəyirsə, bu onun öz seçimidir.

Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra iqtisadi, siyasi uğurlar qazandığını, pandemiya dövründə qəbul etdiyi doğru qərarlar və istər vətəndaşlarına, istərsə də digər dövlətlərə göstərdiyi humanitar yardımlar və başqa tərəqqiləri göstərmək baxımından aşağıdakı abzas xüsusi əhəmiyyət daşıyır.

• 30 ilə yaxındır ki Azərbaycan müstəqillik əldə edib və bu dövr ərzində ölkəmiz kifayət qədər uğurlar qazanıb. Hamının qarşısında aciz qaldığı COVID-19 pandemiyasına qarşı mübarizədə Azərbaycan əhəmiyyətli töhfə verib. Multilateralizmin can verdiyi bir şəraitdə Azərbaycan çoxtərəfli diplomatiyanın vacibliyini və zəruriliyini uzunmüddətli müstəqillik tarixi olan dövlətlərə nümayiş etdirə bildi. Pandemiya dövründə belə Azərbaycanı ağ-qara ekrandan izləməyə vərdiş edən AŞPA və Qərbin bəzi dairələrinin bir daha qərəzinin canlı şahidi olduq.

Prezident İlham Əliyev şəxsi təşəbbüsü ilə pandemiya dövründə Türk Şurasının və Qoşulmama Hərəkatının fövqəladə zirvə görüşləri bu görüşlərin nəticələri barədə danışıb və çıxışında bu məsələlərə də yer verib. Bu məsələlər də geniş şəkildə gündəmə gətirilməlidir.

• Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının və mayın 4-də Qoşulmama Hərəkatının fövqəladə zirvə görüşləri keçirilib. Qeyd olunmalıdır ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunan Zirvə görüşünü keçirib. Qoşulmama Hərəkatının zirvə görüşündə dünyanın dörd bir yanından 40-dan çox ölkənin dövlət və hökumət başçıları və xarici işlər nazirləri iştirk ediblər ki, bu da bir daha ölkəmizə və Prezidentimizə olan inamın, etibarın və etimadın göstəricisidir. Eyni zamanda, Azərbaycan pandemiya dövründə 30-dan çox beynəlxalq təşkilata və dövlətə maliyyə və humanitar yardım edib.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra Xəzər hövzəsindəki enerji resurslarının dünya bazarlarına çıxarılması, Avropanın enerji tələbatının qarşılanmasında mühüm yerə sahib olması, həyata keçirdiyi beynəlxalq infrastruktur layihələri olduqca əhəmiyyətlidir. Bu baxımdan aşağıdakı məsələlər gündəmə gətirilməlidir.

• Azərbaycan dünyada artıq "orta miqyaslı" (middle power) ölkə kimi tanınır. Ərazisinin kiçik olmasına baxmayaraq, Azərbaycan apardığı uğurlu xarici siyasətlə, bəşəriyyətə sülh və davamlı inkişaf bəxş edən dəyərləri təbliğ etməklə beynəlxalq sistemin təhlükəsizliyi və sabitliyinə mühüm töhfə verir. Eyni zamanda, uğurlu regional enerji və infrastruktur layihələri ilə Azərbaycan regionun və Avropanın enerji təhlükəsizliyinə və davamlı inkişafına töhfə verir. Azərbaycan dəfələrlə Rusiya və NATO arasında dialoqun aparılmasında dəfələrlə vasitəçi kimi çıxış etmişdir. Bütün bunlar ölkəmizin nüfuzundan xəbər verir ki, bu da öz növbəsində azərbaycanafobiya qüvvələri narahat etməyə bilməz.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 15 İyun- Milli Qurtuluş Günü münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib



***Paylaşımda deyilir: “Əziz həmvətənlər! Sizi Milli Qurtuluş Günü münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün! Qoy Azərbaycanın müstəqilliyi, xalqımızın azadlığı əbədi olsun! Hər birinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!”***

# Xocavənd Rayon İcra Hakimiyyətində videomüşavirə keçirilib



Müşavirədə Rayon İcra Hakimiyyəti başçısı Eyvaz Hüseynov, inzibati ərazi dairələri üzrə nümayəndələr, idarə və təşkilat müdirləri iştirak ediblər. Online müşavirədə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov bildirdi ki, hazırda dünyanın ən böyük problemi olan koronavirus pandemiyasının qarşısının alınması məqsədilə bütün dövlətlər qabaqlayıcı tədbirlər görür, virusun təsirinin azaldılması üçün addımlar atırlar. Dünyada “COVİD-19” infeksiyasının artım tempi, insanlar və bəşəriyyət üzərindəki fəsadları hər birimizin gözləri önündə cərəyan etməkdədir.

Dünya ölkələrində olduğu kimi, ölkəmizdə də əhalinin təhlükəsizliyi və sağlamlığının qorunması üçün effektiv, ən təxirəsalınmaz tədbirlər uğurla həyata keçirilir. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə təhlükəli virusdan vətəndaşlarımızın sağlamlığının qorunması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması ilə bağlı görülən mühüm işlər uğurlu nəticələrini göstərməkdədir.

Qabaqlayıcı tədbirlərin görülməsi, dünya üçün nümunə olacaq addımların atılması sayəsində kəskin şəkildə azalmaqda olan yoluxma sayı, təəssüflər olsun ki, vətəndaşlar tərəfindən son zamanlar karantin rejiminin tələblərinə əməl edilməməsi, sosial məsuliyyət prinsipinin pozulması ilə sağalanlara nisbətdə kəskin mənfi fərq yaratmışdır.

Son yoluxma sayını nəzərə alsaq, artıq həftə sonlarında küçəyə çıxmağın, ictimai və fərdi nəqliyyat vasitələrinin hərəkətinin qadağan edilməsi bir zərurətdir. Bu hal koronavirusla mübarizədə daha həlledici mərhələnin başlamasına zəmin yaratmış olur. İki günlük sərt karantin rejimi bəşəriyyətin ümumi bəlasına çevrilmiş bu pandemiyanın ölkəmizdə sabitləşməsinə və idarə olunan həddə enməsinə təminatlar yaratmaqla yanaşı, həm də bizim milli birliyimizin, xarakterimizin indikatoru kimi də əhəmiyyətli olacaqdır. Qapanmanın yalnız həftənin 2 gününü əhatə etməsi, ölkədə kifayət qədər ərzaq ehtiyatının olması, həmçinin, maskaların və tibbi spirtin ölkəmizdə istehsalının təşkili vətəndaşlarımızın heç bir narahatçılığının olmamasına xidmət edir.

Başçı həmçinin qeyd etdi ki, Cənab Prezident İlham Əliyevin Tərtər rayonunda səfərdə olarkən tibbi maskadan istifadə etməsi hər bir Azərbaycan vətəndaşı üçün nümunə olmaqla yanaşı, həm də vətəndaş məsuliyyətinin ən bariz nümunəsidir.

Bu örnək hər birimizin əsas istiqaməti olmaqla bərabər, məsuliyyətimizi daha da dərindən dərk etməyə səbəb yaratmalıdır. Yaşadığımız cəmiyyətdə, dostlarımız və qohumlarımız arasında tibbi maskaların taxılması, fərdi dezinfeksiya məhlullarından istifadənin vacibliyi elə bizim səylərimizlə təbliğ edilməlidir.

Konfrans zamanı rayon rəhbəri xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə” Nazirlər Kabinetinin 2020-ci il 29 may tarixli 189 nömrəli Qərarının tələblərinə İH başçısı aparatında, nümayəndəliklərdə, təşkilat və müəssisələrdə qeyd-şərtsiz əməl olunması üçün tapşırıqlarını verdi.

Bununla əlaqədar qurumların rəhbərləri və işçiləri arasında sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadənin vacibliyi barədə təbliğat-izahat işləri aparılmalı olduğunu vurğuladı və mövcud tələbləri pozan vəzifəli şəxslər və işçilərin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə cəlb olunacaqlarını bildirdi.

# Xocavənd ziyalıları xalqımızı cənab Prezidentin çağırışına qoşulmağa səsləyir



***Telli Alıyeva,***
***Xocavənd rayon Salakətin kənd tam orta məktəbinin tarix müəllimi, əməkdar müəllim***

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 9 iyun 2020-ci il tarixində Bakı, Sumqayıt və Abşeron rayonun Saray qəsəbəsində quraşdırılan üç modul tipli xəstəxananın açılışında karantin tədbirləri ilə bağlı səsləndirdiyi “Mənim üçün bir mənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub” fikrinə öz münasibətimi bildirərək qeyd edirəm ki, Koronavirus pandemiyası başlananda bəzi dünya dövlətləri bu xəstəliyə etinasız yanaşdıqları vaxtda ölkə rəhbəri çox qətiyyətli addımlar ataraq hələ fevral ayının sonlarında koronavirusla mübarizə üçün qabaqlayıcı tədbirlərin hazırlanması və həyata keçirilməsi üçün sərəncam imzaldı.

Azərbaycan dövləti böyük məsuliyyətlə ölkə daxilində əməli addımlar atılmasına diqqəti artırdı. Xəstəxananın açılışında Prezidentimizin dediyi kimi qarşısında iki seçim var idi: ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Çünki dövlət başçısı hələ prezidentliyinin ilk illərində dediyi “Mən hər bir azərbaycanlının prezidentiyəm!” sözü özünü bugünki dövlətçilik fəaliyyətində açıq-aydın göstərdi ki, prezident doğru olaraq öz xalqının sağlamlığını birinci yerdə götürür. Tezliklə ölkəmizdə xəstəliklə mübarizə üçün xəstəxanaların tikilməsi, 20-dən artıq labaratoriyaların açılması, ölkədə 20-dən artıq xəstəxananın koronavirus xəstələrinin müalicəsinə aid edilməsi, “Yeni kilinikanın”- 500 yerlik xəstəxananın bu tezliklə mübarizə üçün yaradılması sübut edir ki, dövlət başçısı üçün əsas məsələ xalqının sağlamlığıdır. Azərbaycanda ən çətin günlərdə xaricdən alınan avadanlıqların quraşdırılması ilə Sumqayıtda tibbi maska , dezinfeksiya maddələrinin hazırlanması və həkimlərə qoruyucu geyimlərin hazırlanması üçün açılan müəssisə onun xalqına olan böyük sevgisi və qayğısıdır. DŞT-nin rəhbərliyi tərəfindən dövlətimizin virusla mübarizəsi nümunə kimi digər dövlətlərə göstərilməsi xalqımız üçün fəxarətdir.”Biz birlikdə güclüyük” devizi hamımız üçün vacibdir, biz qoyulan xüsusi karantin qaydalarına evdə, işdə lazım olan tibbi qaydalara düzgün əməl etməklə Prezidentimizin xalqına olan etimadını doğruldarıq.

Dünya dövlətlərinə görə Azərbaycanda pandemiya qurbanlarının sayı və ölüm halları çox aşağıdır.

Bu işdə bizim həkimlərimizin, tibb bacılarının zəhmətini itirməmək üçün hər birimiz bu çağırışlara qoşulmalıyıq. Ən böyük dövlətlərdə belə xəstəliyin müalicəsi üçün xəstəxanalarda yer çatmır, ancaq evdə müalicə olunurlar, amma Azərbaycanda müalicə üçün lazım olan vəsaitin ayrılması ilə hər bir müalicə tədbirləri aparılır.

Məni təsirləndirən sözlərdən biri də hər prezidentimizin xəstəxanaların açılışında həkimlərə böyük təşəkkürünü bildirməklə ayaqüstə həkimlərin şərəfinə alqışlar etməsidir. Biz dövlətimizlə birlikdə olmalıyıq. Prezidentin maraqlı bir çıxışında diqqətimi cəlb etdi: Mənə hər gün çoxlu sayda təbriklər, təşəkkürlər gəldiyi halda, erməni rəhbərliyinə çoxlu sayda lənətlə dolu məktublar gəlir, çünki onlarda koronavirusla mübarizə çox aşağı səviyyədədir, ölüm halları artır.

Mən xalqımızı prezidentimizin çağırışına, əməli fəaliyyətinə dəstək olmağa çağırıram. Əgər biz qaydalara düzgün əməl etsək, tezliklə koronavirus pandemiyasına qalib gələrik!

*Eyvaz Hüseynov:*

# Ümummilli lider Heydər Əliyev müdrik dövlət xadimi, dahi siyasətçi olmaqla bərabər, həm də alovlu vətənpərvər idi



**Eyvaz HÜSEYNOV,**
***Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı***

***Azərbaycan xalqı bəşər tarixinə görkəmli dövlət xadimləri, qüdrətli sərkərdələr, istedadlı alimlər, məşhur sənətkarlar bəxş edib. Millətimizin adını uca edən, azərbaycanlı məfhumuna geniş məkanlarda hörmət gətirən böyük şəxsiyyətlər arasında ulu öndər Heydər Əliyevin müstəsna yeri var. Mənalı və şərəfli ömrünü Azərbaycan dövlətinə, xalqına təmənnasız xidmət etməklə əbədiyaşarlıq rəmzinə çevrilən ümummilli lider haqlı olaraq "Dünyanın ən böyük azərbaycanlısı" adlandırılır. Xalqın əsrlər boyu ən ülvi arzusu olan müstəqillik və azadlıq məramını gerçəyə çevirən, ona sosial rifah və sivil cəmiyyət bəxş edən, ölkəsinin beynəlxalq məkanda böyük nüfuzunu təmin edən insan həqiqətən də, ən ali həmvətənimiz, bütün zamanların əsl Azərbaycanlısıdır.***

Ümummilli lider Heydər Əliyev müdrik dövlət xadimi, dahi siyasətçi olmaqla bərabər, həm də alovlu vətənpərvər idi. Azərbaycanımızın hər bir guşəsi, hər bir bölgəsi kimi Dağlıq Qarabağ da onun üçün əziz və doğma olmuşdur. Zaman-zaman Azərbaycan torpaqlarına göz dikən ermənilərin ötən əsrin ikinci yarısında fəallaşmalarının qarşısı məhz ulu öndərin qətiyyəti sayəsində alınmışdı. Hələ Dövlət Təhlükəsizlik Komitəsinin sədri olarkən erməni millətçilərinin hərəkətlərinin qarşısını dəfələrlə qətiyyətlə alan Heydər Əliyev 1967-ci ilin iyun ayında Xankəndində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edən vərəqələri yayanların və bu işlərin təşkilatçılarının tutulub cəzalandırılmalarına nail olmuşdu. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar 1967-ci ildən başlayaraq ulu öndərin xilaskar fəaliyyətinin şahidi olmuş, onun vətənpərvərliyini, millətsevərliyini daha yaxından hiss etmişlər.

1969-cu ilin iyulun 14-də Azərbaycan KP MK-nın plenumunda birinci katib seçilən Heydər Əliyev Dağlıq Qarabağa münasibətində öz prinsipiallığı və milli dəyərlərə köklənmiş iş üslubu ilə sübut etdi ki, Azərbaycana əsl milli lider rəhbərlik edəcəkdir. Keçmiş vilayətdə yaşayan azərbaycanlıların öz aralarında bir-birinə göz aydınlığı verməsi, nəhayət öz hüquqlarından sərbəst istifadə edəcəklərini böyük sevinclə qeyd etmələri yəqin ki, çoxlarının yadındadır. 70-ci illərdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında böyük bir dirçəliş yaradan Heydər Əliyev son dərəcə barışmaz mövqe və ardıcıl siyasətlə Dağlıq Qarabağda erməni millətçiliyinə və daşnak xislətinə sipər çəkdi. Qəti və prinsipial mövqe bildirərək vilayət partiya komitəsində ermənilərin də iştirak etdiyi toplantıda "Dağlıq Qarabağ Azərbaycan torpaqlarıdır, kim burada yaşamaq istəmirsə çıxıb gedə bilər" bəyanatını verdi. Moskvadakı yüksək dairələrin təzyiqinə baxmayaraq muxtar vilayət millətçi cinayətkar ünsürlərdən təmizləndi. Vilayətin partiya, sovet, hüquq-mühafizə, o cümlədən, dövlət təhlükəsizlik orqanlarında köklü dəyişikliklər edildi. Separatçılar və onların ideoloqları vilayətdən qovuldular. Vilayətdə yaşayan azərbaycanlılar isə yeni bir həyata qədəm qoydular. Mübaliğəsiz demək olar ki, Dağlıq Qarabağda yaşayan azərbaycanlılar məhz Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra özlərini yaşadıqları dədə-baba yurdunun əsl sahibi kimi hiss etməyə başladılar. Onlar sözün həqiqi mənasında vətəndaşlıq hüquqları əldə etdilər. Orta və yaşlı nəslin yaxşı yadındadır ki, ulu öndərimizin hakimiyyətə gəlişinin ilk illərindən başlayaraq bütün azərbaycanlılar yaşayan kəndlər abadlaşmağa, yeni və yaraşıqlı evlər tikilməyə, sosial infrastruktur qurulmağa başlandı. Vilayətin mənəvi-siyasi iqliminin dəyişməsi real həqiqət kimi hər kəsin ovqatına hakim kəsilmişdi.

Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 280 və 360 nömrəli qərarları qəbul olundu və Şuşa şəhəri çox sürətlə inkişaf etməyə başladı. Bu qərarlardan biri Şuşanın kurort şəhəri kimi kompleks şəkildə inkişafı haqqında, ikinci isə Şuşanın "qoruq şəhər" elan edilməsi barədə idi. Az bir vaxtda şəhər əhalisinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədi ilə Turşsu xətti Şırlandan Şuşaya gətirildi, iki sanatoriya binası, 600 yerlik sanatoriya yeməkxanası, 210 yerlik turist bazası, 1176 yerlik xüsusi internat məktəb, radiozavodun filialı, toxuculuq kombinatı, minlərlə kvadratmetr mənzil sahəsi tikildi. Qeyd etmək lazımdır ki, bu kimi abadlıq-quruculuq işləri Dağlıq Qarabağın bütün yaşayış məntəqələrində aparılırdı. Xüsusi ilə uzun illər diqqətdən kənarda qalan azərbaycanlılar yaşayan kəndlər inkişaf etməyə başlayır, əhalinin güzəranı günbəgün yaxşılaşırdı. Birmənalı olaraq qeyd etmək lazımdır ki, 70-ci ildən başlayaraq Dağlıq Qarabağda milli ruhun yüksəldilməsi vüsət aldı.

Ümummilli lider Qarabağın tarixini, mədəniyyətini, incəsənətini mükəmməl bilirdi və onu böyük coşqu ilə hər yerdə tərənnüm etdirirdi. Ulu öndərin tövsiyəsi ilə dünyanın ən qədim insan məskənlərindən olan Xocavənd rayonu ərazisində yerləşən "Azıx" mağarası haqqında sənədli film çəkilmişdi və bu film dünyanın müxtəlif ölkələrində keçirilən Azərbaycan mədəniyyəti günlərində nümayiş etdirilirdi. Sürətlə inkişaf etməyə başlayan Şuşa şəhərində respub-

## *Ulu Öndər Qarabağı böyük coşqu ilə sevirdi*

lika əhəmiyyətli 187 tarixi abidə qeydə alındı və onların hamısının əsaslı təmiri başlandı. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin tələbələrinin Azıx mağarasında arxeoloji ekspedisiyalarda iştirakı, ölkənin digər bölgələrindən olan gənclərin buradakı yerli əhali ilə yaxından təmasda olması, ünsiyyət qurmaları onlarda Dağlıq Qarabağa bağlılıq tellərini daha da möhkəmləndirirdi.

Bütün bunlar Heydər Əliyevin DQMV-də yaşayan azərbaycanlılara xüsusi və doğma münasibətinin təzahürü idi. 70-ci illərdə Azərbaycanın bütün bölgələri kimi, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağın sənayesi, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət, bir sözlə bütöv infrastruktur inkişaf etməyə başladı. Faktlara nəzər saldıqda aydın görünür ki, bütün istehsal növləri üzrə 1979-cu ildə istehsalın həcmi 1970-ci ilə qədər olan dövrə nisbətdə 2-3 dəfə artmışdır. Elə bir il olmurdu ki, Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni həyatında əsaslı yenilik olmasın. 1978-ci ildə Xankəndini respublikanın paytaxtı ilə birləşdirən dəmiryol xəttinin çəkilişi Dağlıq Qarabağın iqtisadiyyatının Azərbaycanın digər bölgələri ilə bağlılığına geniş zəmin yaratdı. Yollar abadlaşdırılır, yeni körpülər tikilir, istehsal sahələri yaradılır, azərbaycanlılar yaşayan kəndlərin uzun illərdən bəri məhrum olduqları enerji və qaz təchizatı yaxşılaşdırılırdı.

60-cı illərdə təhsil, səhiyyə və mədəniyyət ocaqları Azərbaycan kəndlərində yox dərəcəsində idi. Onlar da yuxarıda qeyd etdiyimiz kimi, uçuq-sökük, darısqal idi, adi parta və oturacaq çatışmırdı. Müəllim, həkim, mədəniyyət işçisi kadrları barmaqla sayılacaq vəziyyətdə idi. Ucqar kəndlərdə isə məktəblər çatmırdı. Ulu öndərimiz vilayətdə azərbaycanlı əhalinin maariflənməsi işində də təqdirəlayiq tədbirlər həyata keçirdi. Bütün iri kəndlərdə orta məktəblər yaradıldı. Bir çox yeni məktəb binaları inşa olundu. Yaxın keçmişin statistikasına nəzər salsaq aydın görünər ki, Heydər Əliyev Dağlıq Qarabağda təhsilə və müəllim kadrlara çox ciddi və həssas münasibət göstərmişdir. Belə ki, Şuşa şəhərində 875 yerlik orta məktəb binası, 375 yerlik xüsusi internat, rayonun azərbaycanlılar yaşayan Zarıslı, Xəlfəli, Şırlan, Səfixanlar, Xanlar kəndlərində 375, Malıbəyli kəndində 625 yerlik orta məktəb, Turşsu kəndində səkkizillik məktəb məhz 70-ci illərdə istifadəyə verilmişdir. Ağdərənin azərbaycanlılar yaşayan Umudlu kəndində 625, Çərəkdar, Ortapəyə və Manikli kəndlərinin hər birində 475 nəfərlik, Xatınbəyli, Sırxavənd və Narınclar kəndlərinin hər birində 275 yerlik məktəblər də məhz həmin illərin yadigarıdır. Xocavənd rayonunun Əmirallar, Qaradağlı, Tuğ, Edilli kəndlərinin hər birində 625 yerlik məktəblərin tikilməsi Heydər Əliyevin DQMV-də yaşayan azərbaycanlı əhalinin maariflənməsinə göstərdiyi qayğının ən bariz nümunəsidir.

Yeni yaradılmış təhsil ocaqlarını kadrlarla təmin etmək məqsədilə 1973-cü ildə Xankəndində Pedaqoji İnstitut açıldı. Təbii ki, bu təhsil ocağı azərbaycanlı kadrların yetişdirilməsində, milli ziyalıların Xankəndidə fəaliyyət göstərməsində müstəsna rola malik idi. Bütün sahələr üzrə yerli kadr ehtiyatının yaradılması məqsədi ilə hər il Dağlıq Qarabağdan olan gənclər müsabiqədən kənar ölkənin müxtəlif ali məktəblərinə qəbul olunurdular.

Heydər Əliyevin Dağlıq Qarabağdakı ən böyük xidmətlərindən birincisi isə heç şübhəsiz, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması olub. Həmin dövrə qədər vilayətdə idarə, müəssisə və təşkilatlarda, məktəblərdə, səhiyyə və mədəniyyət müəssisələrində ad göstəriciləri erməni və rus dillərində, habelə bütün yazışmalar da bu dillərdə aparılırdı. Ulu öndərin qəti tapşırığı ilə vilayətin erməni və rus dilli məktəblərində Azərbaycan dili tədris olunmağa başlandı. Vilayətin partiya, sovet, hüquq-mühafizə orqanlarının və digər təşkilatların inzibati binalarının lövhələrinin Azərbaycan dilində yazılmasına başlanması da 70-ci illərə təsadüf edir. Dağlıq Qarabağda səhiyyənin inkişafı da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Tibb İnstitutunu bitirən azərbaycanlılar təyinatla vilayətə göndərilir, milli kadrlarla həmin səhiyyə ocaqları möhkəmləndirilirdi.

Bir sözlə, azərbaycanlıların vilayətə axını üçün münbit şərait yaradılmışdı. Bir fakta diqqət yetirək. 1970-ci ildə DQMV-nin ümumi əhalisinin 18 faizi azərbaycanlı olduğu halda, bu rəqəm 1989-cu ildə 30 faizi keçmişdi. Erməni millətçilərinin ciddi narahatçılığına səbəb olan bu artım xalqımızın dahi oğlu Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin bəhrəsi idi. 80-ci illərin əvvəllərində vilayətdə azərbaycanlıların sayı daha da yüksək həddə çatmışdı. 1982-ci ildə Heydər Əliyev Moskvaya SSRİ rəhbərliyinə aparılan zaman ermənilər sanki yasa batmışdılar. Onlar bu yüksək təyinatı qısqanclıq hissi ilə həzm edə bilmirdilər və öz daxillərindəki məkr və sərsəm xəyallarının həyata keçirilməsinin daha da müşkülə düşdüyünü dərk edirdilər.

Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrün ən xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu dövrdə erməni millətçiləri bir dəfə də olsun torpaq iddiasına cəsarət edə bilməmişdilər. 1982-ci ildə Qarabağın ən uca zirvəsində - Şuşada Azərbaycan varlığının canlı təcəssümü kimi Vaqifin məqbərəsini ucaldanda Heydər Əliyev tarixi missiyasının - bu vilayəti tam olaraq azərbaycanlılaşdırdığının təntənəsini yaşadı.

1987-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra ermənilər Dağlıq Qarabağda toy-bayram etməyə başladılar. Bundan 15 gün sonra Qorbaçovun iqtisadiyyat üzrə müşaviri, milliyyətçə erməni olan Aqambekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" bəyanatı ilə çıxış etdi. Bununla da ermənilərin uzun illər ərzində Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə hazırladıqları planların həyata keçirilməsinə start verildi. Onlar açıq-aşkar deyirdilər ki, son iyirmi ildə onların iyrənc, separatçılıq planlarının həyata keçirilməsinin qarşısı məhz Heydər Əliyev tərəfindən alınmışdır. Daşnak tör-töküntülərinin, erməni emissarlarının, vaxtı ilə ulu öndər tərəfindən Azərbaycandan sürgün edilmiş yerli "ideoloq"larının Dağlıq Qarabağa axını da məhz 1987-ci ildən sonra başlandı.

1987-ci ildən Dağlıq Qarabağda ermənilərin təşkilatlanması, silahlı dəstə yaratması, bir çox ölkələrdən gəlmiş muzdluların ermənilərə hərbi təlim keçməsi, bir sözlə, münaqişəyə hazırlıq görmələri heç kəsə sirr deyildi. İrəvan Xankəndi arasında emissarlar daha çox diqqəti cəlb edirdilər. Belə olan halda azərbaycanlılar respublika rəhbərliyinə, hüquq-mühafizə orqanlarına müraciət etsələr də, Moskvanın diktəsi ilə oturub-duran respublika rəhbərliyi azərbaycanlılara "sakit olun", "emosiyalara qapılmayın", "fitnəkarlığa uymayın" və s. "səbr dərsi" keçir, ermənilər isə daha da azğınlaşırdılar. Ermənilər öz mənfur planlarını həyata keçirmək üçün hər cür dona girir və bizə deyirdilər: arxa-dayağınız gedib, daha bizə mane ola biləcək heç bir kəs yoxdur! Həqiqətən də hadisələrin sonrakı inkişafı düşmənlərimizin dediyini sübut etdi və Azərbaycan xalqının xilaskarı, arxa və dayağının yalnız Heydər Əliyev olduğu bir daha təsdiqləndi. Münaqişə isə gündən-günə alovlanırdı. Ermənilər artıq silahlı basqına və terrora keçmişdilər. Avtobuslar, maşınlar, adamlar atəşə tutulur, günahsız insanlar həlak olurdular. Ən acınacaqlısı isə o idi ki, ermənilərin törətdikləri bu cinayətlər cəzasız qalırdı.

Bütün bunlara qarşı respublika rəhbərliyindən heç bir tədbir və reaksiya verilmədiyini görən ermənilər daha da azğınlaşaraq növbəti qanlı planlarını hazırlayırdılar. Bunları ölkə rəhbərinin nəzərinə çatdırmaq üçün Xocavənddən böyük bir nümayəndə heyəti 11 sentyabrda Prezident Aparatında Ayaz Mütəllibovun qəbulunda oldu. Yenə də həmişə olduğu kimi, yalançı vədlər və biganə münasibət. Bundan əvvəl də dəfələrlə Dağlıq Qarabağdakı mövcud durum haqqında respublikanın rəhbərlərinə müraciət olunmuşdu. Çox təəssüf ki, heç bir tədbir görülmürdü. Bu laqeydliyə cavab olaraq xocavəndlilər prezident seçkilərində iştirak etməməyi qərara aldılar. Buna onların haqqı çatırdı. Öz vətəndaşlarının təhlükəsizliyinə və torpaqların müdafiə olunmasına biganə qalan, Moskvanın göstərişləri ilə oturub-duran, ermənilərin törətdikləri cinayətlərə göz yuman Mütəllibovun prezident seçilməsi boş və mənasız bir addım idi. Məhz buna görə xocavəndlilər seçki bülletenlərində Mütəllibovun adını silərək onun üzərindən Heydər Əliyevin adını yazmışdılar.

Qədim yurd yerlərimiz oda qalanır, dinc insanlar vəhşiliklə qətlə yetirilirdi. 1991-ci ilin noyabrında bir qrup nümayəndə heyəti yenidən Bakıya-Prezidentlə görüşə getdi. Mövcud vəziyyət ona çatdırıldı. Yenə də həmişə olduğu kimi kömək olunacağı barədə yalançı vədlər verildi. Bu görüşlərin heç bir fayda verməyəcəyi göz qabağında idi. Bütün bunlar isə bizi sarsıdır və üzürdü. Münaqişənin ilk günlərindən ölkə rəhbərliyinin qətiyyətsiz mövqeyini görən Dağlıq Qarabağ azərbaycanlıları bu məsələnin birdəfəlik həllinə yalnız Heydər Əliyevin nail ola biləcəyinə, ermənilərin hər zaman Heydər Əliyev qətiyyəti, iradəsi və zəkası qarşısında aciz olduqlarını inamla bildirirdilər. Azərbaycan xalqı, eləcə də qarabağlılar çıxış yolunu Heydər Əliyevin hakimiyyətə gəlməsində, xalqı düşdüyü ağır vəziyyətdən, ən başlıcası isə dərin ümidsizlikdən yalnız onun qurtara biləcəyində görürdülər. Nicat yalnız Heydər Əliyevdə idi!

1991-ci ilin noyabrında Xocavənd əhalisinin sözlərini və arzularını çatdırmaq üçün Naxçıvana xalqımızın dahi oğlu Heydər Əliyevin yanına getməyi özümə borc bildim. Noyabr ayının 16-da ulu öndər Naxçıvan Muxtar Respublikası Milli Məclisində məni qəbul etdi. Həmin vaxt Naxçıvanın özü ağır şəraitdə idi. Burada da ermənilər sərhəd boyu hücuma keçirdilər. Mövcud vəziyyətlə bağlı ulu öndərə ətraflı məlumat verdim,

*Eyvaz Hüseynov:*

# Ümummilli lider Heydər Əliyev müdrik dövlət xadimi, dahi siyasətçi olmaqla bərabər, həm də alovlu vətənpərvər idi

xocavəndlilər və o cümlədən, Dağlıq Qarabağda yaşayan azərbaycanlılar adından kömək istədim. Ulu öndər çox dəyərli tövsiyələri ilə bərabər nəyin bahasına olursa-olsun torpaqları müdafiə etmək tapşırığını verdi. Geriyə qayıtdıqdan sonra Azərbaycanın böyük oğlunun tövsiyə və salamlarını xocavəndlilərə çatdırdım.

Bu, əhali arasında çox böyük ruh yüksəkliyi ilə qarşılandı və qısa zamanda torpaqların müdafiəsi üçün hamı silaha sarılaraq əzmlə döyüşə atıldı. El-obanın igid və cəsur oğullarından təşkil olunmuş Xocavənd özünümüdafiə dəstəsində nizam-intizam möhkəmləndi və döyüş ruhu yüksəldi.

Erməni hərbi birləşmələrinə qarşı hər qarış vətən torpağı uğrunda qanlı döyüşlər gedirdi. Bütün yaşayış məntəqələrində insanlar öz ocaqlarını, ata-baba yurdlarını mərdliklə müdafiə edirdilər. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, hələ 1967-ci ildə milli münaqişə zəminində baş vermiş hadisələrlə bağlı ulu öndərin olduğu Xocavənd rayonunun Qaradağlı kəndi 77 şəhid verdi. Bu da kənd əhalisinin hər 10 nəfərindən biri demək idi. Lakin qüvvələr qeyri-bərabər idi.

Bütün cəhdlərə baxmayaraq kəndlər işğal olunur, yandırılır və dağıdılırdı. Bu döyüşlərdə Xocavənd rayonu 145 şəhid verdi, yüzlərlə insan yaralandı. 1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlılara qarşı misli görünməmiş soyqırım törədildi, may ayında isə Şuşa şəhəri işğal edildi. Vaxtilə Heydər Əliyevin çox böyük coşqu və fədakarlıqla qurub-yaratdığı Dağlıq Qarabağ ermənilərin caynağına keçmişdi. Artıq müharibə Dağlıq Qarabağın sərhədlərindən kənarda, digər şəhər və kəndlərimizdə gedirdi. Azərbaycan faktiki olaraq parçalanmaq, məhv olmaq astanasında idi.

Xalq çıxış yolunu özü tapdı. Naxçıvana Heydər Əliyevə saysız-hesabsız müraciətlər olundu. Xalq üzləşdiyi çətinliklərdən xilas olmaq üçün öz dahi oğlunu Bakıya çağırdı. Azərbaycan xalqının təkidli tələbi və xahişi ilə 1993-cü ilin iyununda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi ilə müstəqil Azərbaycanın tarixində yeni eranın başlanğıcı qoyuldu. Həmin vaxt öz xalqının iradəsinə arxalanan ulu öndər iki cəbhədə - cəbhə xəttindəki düşmənlərlə və eyni vaxtda, daxili dönüklərlə mübarizə aparırdı. Daxili və xarici qüvvələr Azərbaycanda bir neçə dəfə dövlət çevrilişinə cəhd göstərsələr də, Heydər Əliyev qüdrəti qarşısında məğlub oldular. 1993-cü ilin noyabrında Heydər Əliyevin xalqa müraciətindən sonra cəbhədə dönüş yarandı. Bütün cəbhə boyu əks hücuma keçən milli ordu Füzuli rayonunun 22 kəndini işğalçılardan azad etdi. Bu döyüşlərdə Xocavənd istiqamətində döyüşən silahlı qüvvələr rayon ərazisinin bir hissəsini işğalçılardan azad etdi. Həmin döyüşlərdə Xocavənd taburu xüsusi igidlik və cəsarət nümayiş etdirdi. Ağır sarsıntılar keçirmiş xalq bir qədər yüngülləşmiş kimi rahat nəfəs aldı: Heydər Əliyev gəlibsə hər şey yaxşı olacaq!

1994-cü ilin aprelində Heydər Əliyev Xocavənd rayonu ərazisində cəbhə xəttinə səfəri zamanı Xocavənd taburunun döyüşçüləri ilə səmimi görüşdü, igid vətən oğullarına öz təşəkkürünü bildirdi. Bir neçə cəsur döyüşçünü isə vətənin yüksək mükafatı ilə təltif etdi. Bu görüşdən ruhlanan əsgərlərimiz həm Xocavənd, həm də Ağdam cəbhələrində "Vətən uğrunda!", "Heydər Əliyev uğrunda!" deyərək böyük şücaət və qəhrəmanlıqlar göstərdilər. Xocavənd rayonunun - Dağlıq Qarabağın 14000 hektar ərazisi düşməndən azad edildi. Hazırda həmin ərazilər ordumuzun nəzarəti altındadır və rayon sakinləri orada gündəlik təsərrüfat işləri ilə məşğul olurlar.

1994-cü ilin may ayında atəşkəs elan olunduqdan sonra ölkə yeni nəfəs almaq üçün vaxt əldə etdi. Qısa müddət ərzində bütün sahələr üzrə yeni quruculuq işlərinə başlanıldı. Dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşmiş Azərbaycanı dərin bir uçurumdan xilas edən ümummilli liderimiz ölkəni inkişaf və tərəqqi yoluna çıxardı.

Ermənilər Heydər Əliyevin tarixi qayıdışını heç zaman gözləmirdilər. Bu qayıdış Azərbaycanı parçalanmaq və dağılmaq təhlükəsindən xilas etdi. Başıpozuq qüvvələrin və xarici kəşfiyyatın Azərbaycanda gerçəkləşdirmək istədikləri vətəndaş müharibəsinin qarşısını aldı. Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyuldu və gələcək tərəqqi üçün möhkəm zəmin yaradıldı. Heydər Əliyevin həyatı, fəaliyyəti Azərbaycan tarixinin şanlı və qızıl hərflərlə yazılmış səhifələri, bütöv bir epoxanın canlı salnaməsidir. Heydər Əliyev siyasətlə ağlın gücünü birləşdirərək mənsub olduğu xalqı qabaqcıl dövlətlər sırasına çıxardı. Məhz Heydər Əliyevin çevik siyasəti, böyük dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi, eyni zamanda sarsılmaz Xalq-Heydər Əliyev həmrəyliyi sayəsində Azərbaycan xalqı qardaş qırğını və dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas oldu. Özünün dünya miqyasındakı böyük nüfuzundan məharətlə istifadə edərək Azərbaycanın haqq səsini və ermənilərin işğalçılıq siyasətini bütün dünya ölkələrinə çatdırılması istiqamətində ölçüyəgəlməz işlər gördü. Səfər etdiyi bütün xarici ölkələrdə əlində Azərbaycan xəritəsi mövcud reallığı əyani şəkildə sübut etdi. Bunun nəticəsidir ki, indi dünya ictimaiyyəti Azərbaycanın ərazi bütövlüyünü qəbul edir, Ermənistanın işğalçılıq siyasəti beynəlxalq təşkilatlar tərəfindən pislənilir. Müdrik insan, qüdrətli şəxsiyyət olan Heydər Əliyevin xalqına xidmət etmək potensialı güclü idi.

Bu gün ulu öndərimizin müdrik siyasəti Heydər Əliyev məktəbinin layiqli yetirməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğur və inamla davam etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada lider ölkəyə çevrilməsi faktıdır. Ulu öndər Heydər Əliyevin dərindən düşünülmüş yeni neft strategiyası nəticəsində nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan dövlətinin beynəlxalq nüfuzu artır, ölkə daxilində yaradılmış ictimai-siyasi vəziyyət, sabitlik sürətli inkişafa imkan verir. Yurd-yuvalarından didərgin düşmüş soydaşlarımıza dövlət qayğısı prioritet məsələ kimi daim ölkə Prezidentinin diqqət mərkəzindədir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində tezliklə Azərbaycanda bir dənə də olsun çadır şəhərciyinin qalmayacağını bildirən dövlət başçının verdiyi vəd tam reallaşmış, Azərbaycanda bütün çadır şəhərcikləri ləğv edilmiş, onların yerində müasir və hər cür şəraitə malik yeni evlər tikilib məcburi köçkünlərin istifadəsinə verilmişdir. Lakin biz məcburi köçkünlər yaxşı bilirik ki, bütün bunlar müvəqqətidir. 2008-ci il oktyabr ayının 4-də rayonumuzdan olan məcburi köçkünlər üçün Beyləqan rayonu ərazisində tikilmiş yeni qəsəbənin açılışındakı nitqində cənab İlham Əliyev qeyd etmişdir ki, "Tikilmiş bu qəsəbələr müvəqqətidir. Biz bu qəsəbələri tikirik ki, siz burada rahat yaşayasınız. Biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dağlıq Qarabağdan olan insanlar öz doğma yurdlarına qayıdacaqlar."

Torpaqlarımızın sülh yolu ilə işğaldan azad olunması üçün ölkə rəhbərliyi beynəlxalq səviyyədə böyük işlər həyata keçirir. Beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın haqq səsi eşidilir və qəbul edilir. Aparılan sülh danışıqları ilə yanaşı ordu quruculuğunda, ölkənin hərbi qüdrətinin artırılması istiqamətində uğurlu addımlar atılır. İyun ayının 24-də Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin birgə keçirdiyi irimiqyaslı əməliyyat - taktiki təlimin əsas mərhələsini izləyən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bildirmişdir: "Biz müharibə şəraitində yaşayırıq, buna görə də biz ilk növbədə, ordu quruculuğu ilə məşğul olmalıyıq və məşğul oluruq. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı düşməndən silahlı yolla azad edək".

Son illərdə mütəşəkkil qüvvəyə çevrilən Dağlıq Qarabağın azərbaycanlı icması həmişə olduğu kimi, indiki həssas dövrdə də Heydər Əliyev siyasi kursunu birmənalı dəstəkləyir və bu xətti layiqincə həyata keçirən Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmininə yönələn siyasətinə dayaqdır. Qeyd edim ki, bu yaxınlarda qurultayını keçirən Dağlıq Qarabağ bölgəsi Azərbaycanlı İcması İctimai Birliyi fəaliyyətində yeni mərhələnin əsasını qoyub. Ümumiyyətlə, icmanın fəaliyyətinə hüquqi statusun verilməsi onun beynəlxalq miqyasda fəal şəkildə təşkilatlanmasına, erməni lobbisinin qərəzli təbliğat kampaniyasına qarşı effektiv mübarizə aparmasına imkan yaradır. İcma Dağlıq Qarabağ azərbaycanlılarının üzləşdikləri acınacaqlı vəziyyət barədə, eyni zamanda Ermənistanın azərbaycanlılara və türklərə qarşı tarixən apardığı soyqırımı cinayətləri ilə bağlı məlumatların dünya birliyinə çatdırılmasını qarşısına əsas məqsəd qoyub. Qurultayda haqlı olaraq vurğuladıq ki, Dağlıq Qarabağ icmasının üzvləri müasir informasiya resurslarından, kompüter texnologiyalarından istifadə etməklə ölkə həqiqətlərini bütün dünyaya yaymalı, ermənilərin təcavüzkar siyasətinin ifşasına çalışmalı, həmçinin icmanın internet saytının yaradılmasına nail olunmalıdır. Bir sözlə, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində bu bölgənin sakinlərinin mövqeyi nəzərə alınmalıdır.

Dağlıq Qarabağdan olan azərbaycanlılar inanırlar və əmindirlər ki, Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımız işğaldan azad olunacaq, özülü ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycanımız onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha parlaq gələcəyə nail olacaqdır. Çünki Prezident İlham Əliyevin qətiyyətli iradəsi bu gün münaqişənin ədalətli həllinə yaranan ümummilli ümidin əsas amilinə çevrilib. Vətəndaşlarımızda qələbəyə olan əminlik də dəfələrlə artıb. İndi Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini bütün variantlarda həll etmək üçün imkanları - siyasi və hərbi qüdrəti var. Seçim, şübhəsiz ki, xalqın və Ali Baş Komandanındır!..

***"Azərbaycan". 2009.- 14 iyul.***

# Koronavirus infeksiyası ilə bağlı ölkədə tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar Xocavənd Rayon İcra Hakimiyyətinin MƏLUMATI

Azərbaycan dövləti koronavirus (COVID-19) infeksiyası ilə mübarizə sahəsində bütün zəruri tədbirləri həyata keçirir. Məhz bunun nəticəsində ölkəmizdə pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq mümkün olub.

Xüsusi karantin rejimi dövründə yoluxma hallarının sayı minimuma endirilmiş, ölkəmizdə ölüm halları çox aşağı səviyyədə olmuş, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxma hallarının sayını üstələmişdir.

Amma təəssüflə qeyd etməliyik ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlanmış, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmamışdır.

Pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda, bu xəstəliyə qarşı peyvənd tapılmadığından virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir. Vətəndaşların əksəriyyətinin son zamanlar karantin rejiminə əməl etməməsinə görə, yoluxanlar və sağalanların sayı arasında ciddi fərq yarandığı səbəbindən, karantin rejiminin yenidən sərtləşdirilməsi barədə təklif hazırlanmışdır.

Həftə sonları tam qapanma vətəndaşların sağlamlığını qorumaq məqsədini daşıyır. Qapanmanın yalnız həftənin 2 gününü əhatə etməsi, ölkədə kifayət qədər ərzaq ehtiyatının olması, həmçinin maskaların və tibbi spirtin Azərbaycan Respublikasında istehsalının təşkili vətəndaşlarımızın heç bir narahatçılığın olmamasına xidmət edir.

Cənab Prezident İlham Əliyevin 03.06.2020-ci il tarixində Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməsi hər bir Azərbaycan vətəndaşı üçün nümunə olmalıdır. Hər bir vətəndaş öz şəxsi məsuliyyətini hiss etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir.




İnsanların toplaşdığı və yaxın təmasda olduğu açıq və qapalı ictimai yerlərdə, nəqliyyatda, ictimai iaşə, ticarət və xidmət obyektlərində aranızda sosial məsafənin saxlanmasına və maskadan istifadə edilməsinə əməl edin.

## *Anar İbrahimov:*

# Cənab Prezident İlham Əliyevin Qondarma Dağlıq Qarabağda xunta rejiminin keçirdiyi saxta prezident və parlament seçkiləri ilə bağlı səsləndirdiyi fikirlər xocavəndlilərin ürəyincə oldu



*Anar İbrahimov, Xocavənd rayon Salakətin kənd tam orta məktəbin tarix müəllimi*

Hətta uzun illərdir Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün vasitəçilik missiyası ilə çıxış edən ATƏT-in Minsk qrupu həmsədrləri - Amerika, Fransa, Rusiya qondarma xunta rejimində keçirilən seçkiləri və nəticələrini tanımadıqlarını bildiriblər. Avropa İttifaqı da eynilə seçkiləri tanımadığını bəyan edib.

Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı. Təəsüf hissi ilə qeyd etməliyik ki, Qondarma Dağlıq Qarabağda keçirilmiş saxta seçkilərə Cənab Prezident İlham Əliyevin təbrincə desək şou və təlxəklər tamaşasına Avropa Şurası münasibət bildirmədi. Avropa Şurasının susmağının səbəbi bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Dünyada gedən proseslərə biganə qalan bu dırnaqarası təşkilat nədənsə Azərbaycanda sosial-iqtisadi, mədəni, ictimai-siyasi sahəhələrdə həyata keçirilən bütün islahatlara qarayaxma ilə məşğuldur. Avropa Şurası qitədə yüz illərdir formalaşam bəşəri və insani dəyərləri diqqətə almadan xunta rejiminin, işğalçının, Xocalıda Azərbaycanın mülki əhalisinə qarşı soyqırım edən, narkotik və silah qaçaqmalçılığı mərkəzi olan qondarma qurumun demokratik dəyərləri kobud şəkildə pozmasına səssiz qaldı.

Anar İbrahimov bu gün dünyada cərayan edən proseslərə diqqət çəkərək bildirib ki, ABŞ-ın Minneapolis şəhərində "Nəfəs ala bilmirəm" deyən silahsız qaradərili Corc Floydun ölümünə münasibət bildirməməsi insanda bir ikrah hissi oyadır. Hanı haqq-ədalət bir günahsız əli yalın insanı irqinə görə qanun keçikçisi küçənin ortasında silahdan açılan atəşlə qətlə yetirirsə budurmu Avropa Şurasının ədaləti. Göründüyü kimi "bu ədalət carçısı" kim güclüdürsə, ondan qorxur. Həmin dövlətdə gedən proseslərə nəinki münasibət bildirir bu məsələləri görməzlikdən gəlir. Natiq Cənab Prezidentin qeyd etdiyi kimi, iki Azərbaycan vətəndaşının 2014-cü ilin iyun ayında öz ata-baba yurdlarını ziyarət edərkən ermənilər tərəfindən tutularaq qondarma DQR mühakimə olunmasına AŞPA-nın biganə qalmasının bir daha Azərbaycan Respublikasına qarşı ikili standarların mövcudluğundan xəbər verdiyini təəssüflə qeyd etdi. Artıq 6 il keçməsinə baxmayaraq, əsirlikdə olan iki mülki Azərbaycan vətəndaşının - Dilqəm Əsgərov və Şahbaz Quliyevin hələ də qanunsuz olaraq xunta rejimində həbsdə saxlanılmasına aidiyyəti qurumların səssiz qalması dünyanın gözü önündə baş verir və ən təsirlisi isə Dilqəm Əsgərov və Şahbaz Quliyevin pozulmuş hüquqlarının bərpası ilə bağlı hər hansı fikir sərgiləmirlər.

# Xocavənd qəsəbələrində sakinlər arasında maskalardan istifadə və sosial məsafənin qorunmasına nəzarət gücləndirilib

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikasının ərazisində yeni növ koronavirus (COVID-19) infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməlidir.

Xocavənd qəsəbələrində koronavirusa qarşı mübarizə çərçivəsində maarifləndirmə işləri davam edir. Sakinlər arasında maskalardan istifadə və sosial məsafənin qorunmasına nəzarət gücləndirilib.



# 10 iyun 2020-ci iltarixində Beyləqan rayon ərazisində fəaliyyət göstərən Xocavənd rayon ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün buraxılış imtahanı keçirilmişdir



10 iyun 2020-ci il tarixində Beyləqan rayon ərazisində fəaliyyət göstərən Xocavənd rayon ümumtəhsil məktəblərinin 9-cu siniflər üçün buraxılış imtahanı keçirilmişdir. Buraxılış imtahanlarında 77 şagird iştirak etmişdir.

İmtahan koronavirus pandemiyası təhlükəsi ilə əlaqədar tələb olunan tibbi-profilaktiki şəraitdə keçirilmişdir.

## *Məhərrəm Nəsirov:*

# "Azərbaycanın uğurlarını qəbul etməyənlər Qərbin erməni təəssübünü çəkən siyasi dairələridir"



Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da qüdrətlənir, beynəlxalq münasibətlər sistemində güclü mövqeyi olan dövlət kimi qəbul edilir. Respublikamızın müstəqil siyasət yürütməsi, enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması, sivilizasiyalar və mədəniyyətlərarası dialoqun yaradılması kimi qlobal məsələlərdə söz sahibi kimi çıxış etməsi sağlam siyasi mərkəzlərin etiraf etdiyi reallıqlardır.

Azərbaycanın bu uğurlarını qəbul etməyənlər isə Qərbin erməni təəssübünü çəkən siyasi dairələridir. Hansı ki, həmin dairələr daim Azərbaycanda gedən inkişaf və demokratikləşmə proseslərinə, ölkəmizin hər bir uğuruna qara yaxmağa, kölgə salmağa, anlayışını belə verə bilmədikləri "siyasi məhbus" axtarmağa çalışıblar. Son olaraq Avropa Şurasının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində separatçı rejim tərəfindən keçirilən seçki şousuna münasibət bildirməməsi həmin dairələrin iç üzünü bir daha ortaya qoydu.

3 iyun 2020-ci il tarixində Tərtər şəhərində Olimpiya İdman Kompleksinin açılışından sonra idmançılarla görüşən Prezident İlham Əliyev bu məsələyə toxunaraq bir daha bəyan etdi ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər bir kağız parçasından artıq deyil. "Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolon"u, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı" deyən Prezident qeyd etdi ki, bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Bəli, dövlət başçısının da dediyi kimi Azərbaycan ictimaiyyəti görür ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiya durur. Avropa Şurasının və onunla eyni mövqedə olan "Freedom House", "Human Rights Watch", "Amnistey International" kimi təşkilatlar daim Azərbaycanı ləkələmək üçün fürsət axtarır, ölkəmizdə insan hüquqlarının vəziyyəti ilə bağlı obyektivlikdən uzaq bəyanatlar verir, o cümlədən islamofobiya mövqeyində duraraq qərəzli çıxışlar edirlər. Lakin bir dəfə də olsun qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq azərbaycanlının pozulmuş yaşamaq və mülkiyyət hüquqlarını müdafiə etməyiblər.

Amma Azərbaycan dövlətinin uğurlarını həzm edə bilməyənlər yalnız bunlar deyil. Bu gün özünü müxalifətçi və ya hüquq müdafiəçisi hesab edən bir qrup qaragüruh, xəyanət yolunu seçmiş reneqatlar da öz əməlləri ilə dövlətimizə və xalqımıza qənim kəsiliblər. Prezident İlham Əliyev Tərtərdəki nitqində "beşinci kolon"u və "satqınlar" ifadələrini təsadüfi işlətmədi. Çünki çoxdan tükəndiklərini, xalqın nifrətini qazandıqlarını hələ də dərk edə bilməyənlərin və onların təmsil olunduqları təşkilatların xalqa və dövlətə xəyanət yolunu tutduqları sübuta ehtiyacı olmayan aksiomdur. Məsələn, bu adamlar sifariş aldıqları Qərb dairələrində keçirdikləri görüşlərdə bir dəfə də olsun Azərbaycanın haqq səsini ucaltmır, Qarabağın Ermənistan tərəfindən işğal olunduğunu dilə gətirmir, eyni zamanda Azərbaycandakı real vəziyyəti məqsədyönlü şəkildə təhrif edirlər. Çünki siyasi xülyaları naminə məhz ermənipərəst dairələrlə əməkdaşlıq edirlər və bununla da Azərbaycan dövlətinin və xalqının milli maraqlarına qarşı çıxırlar.

Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi 29 il ərzində çox ağır sınaqlara məruz qalıb. Lakin dövlətimiz bütün bu sınaqlardan daim alnıaçıq çıxıb. Bu gün isə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha qüdrətli və daha güclüdür. Heç bir xarici qüvvə və milli satqınlar qrupu bu dövlətə təzyiq və ya təsir edə bilməz!

# Son Zəng

**Əziz Məzunlar!**

Bu gün sizin həyatınızın ən gözəl və önəmli günlərindən biridir. Bu gün siz məktəb həyatını bitirib azad həyat yollarına qədəm qoyursunuz.

Bu münasibətlə Xocavənd rayon ümumtəhsil məktəbini bitirən məzunları təbrik edir, sizlərə həyatınızın bu yeni mərhələsində uğurlar arzu edirik!



Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor: Ruslan Şirinov

Hesab №: AZ73AIIB33080019444000298140
VÖEN: 7900031641
"Kapital Bank" ASC Beyləqan Filialı

Ünvan: Yeni Xocavənd qəsəbəsi,
Tiraj:1000,
Sifariş 765

Mob: (051)720-21-71
www.Xocavend-ih.gov. az
www. Xocavendmks. com
www. Garadaghli. org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Son dakika" mətbəəsində çap olunmuşdur.